Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika Uşaq Kitabxanası



# Repressiya dalğasının qurbanı – Məmməd Kazım Ələkbərli

**Məmməd Kazım Ələkbərlinin 115 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Repressiya dalğasının qurbanı – Məmməd Kazım Ələkbərli:** Məmməd Kazım Ələkbərlinin 115 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. - 16 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Giriş

*Ya rəbb, bu nə dəhşət,nə fəlakət!*
*Ya rəbb, bu nə vəhşət, nə zəlalət!*
*Yox kimsədə insafü mürüvət,*
*İblisəmi uymuş bəşəriyyət?!*

***H.Cavid***

Bağlı qapıları döyürük... Sıxıntı hisslərində çırpına-çırpına, həyəcan içində titrəyə-titrəyə... Bağlı qapıları döyürük... Açılanı da var, açılmayanı da.

Açılmayan qapıların bir rəngi bir qara ağrıya dönüb içərimizə dolur. Sıxır, ağrıdır bizi. Dayanıb sakit-sakit bağlı qapılara baxırıq. Bəlkə də bu bağlı qapıları dünyanın ən yaxşı rəngləri ilə boyasalar da yenə qara kədərini silib getməyəcək. Nə qədər sular axacaq, neçə qış, bahar gəlib keçəcək insanların ömründən, amma o kədər ürəyə düşən qara xal kimi qalıb yaşayacaq ki, dünyaya gələn azərbaycanlıya "qanlı 37-dən" faciəli ağrılar pıçıldasın. O adamların günahsız olduğunu, xalqı, vətəni bütün varlıqları ilə sevdiyini danışsın.

...Bağlı qapıları döyürük... Açılanı da var, açılmayanı da. Açılan qapılar bir anlığa sevindirir bizi. Düşünürük ki, nə yaxşı ki, oğul-uşaqlarından, övladlarından yaşayıb qalanı var. Demək ki, hələ də ocaqları yanır, tüstüsü tüstülənir o vətən fədailərinin. O ocaq başında illərlə gözü yolda qalanlar da var, haqqın, ədalətin əsl təntənəsini gözləyənlər də. Gör neçə ilin ağrısını çəkiblər... Gör neçə il cəmiyyət də, cəmiyyətdəki adamlar da, elə dost-doğmalar da üz döndərib onlardan. Görəndə bir salamı belə əsirgəyiblər onlardan. "Xalq düşməni" nin ailəsinə kim yaxınlıq edə bilərdi ki?..

...Bağlı qapıları döyürük... Açılanı da var, açılmayanı da. Açılan qapılardan içəri girib, ağrılı-acılı söhbətləri dinləyirik. Qan donduran həqiqətləri dinləyirik. Həqiqətlər varaq-varaq aralanır. Bu ağrılı, keşməkeşli ömür sahiblərindən biri də,

neçə-neçə dəyərli insanın ömrünə balta çalmış, həyatını zülmə döndərmiş 1937-ci ilin qara tufanının qurbanlarından Məmməd Kazım Ələkbərlidir. Məmməd Kazım Ələkbərli Azərbaycan yazıçısı, tənqidçi, filosof, Azərbaycan Yazıçılar Birliyinin (AYB) ilk sədri olub. Bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan qaynar təbli ədibimizin, talesiz Məmməd Kazım Ələkbərlinin keçdiyi həyat yolunu oxuculara çatdırmaq məqsədilə və eyni zamanda böyük ədibin 115 illik yubileyi münasibətilə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ***"Məmməd Kazım Ələkbərli yanğısı"*** adlanır və Məmməd Kazım Ələkbərlinin həyat və yaradıcılığından bəhs edilir. II hissədə isə ***"Tufanlı yollardan qalan iz"*** adlanır və Məmməd Kazım Ələkbərlinin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Repressiya dalğasının qurbanı

1934-cü ildə ölkə yazıçılarının Bakıda keçirilən I qurultayında Azərbaycan Yazıçılar İttifaqı yarandı. Bu vaxta qədər Azərbaycan yazıçıları ayrı-ayrı ədəbi birləşmələrin tərkibində fəaliyyət göstərir, müxtəlif ədəbi məclislərin ətrafına yığışırdılar. Onların bir təşkilat daxilində birləşməsi həm də həyatın tələbi idi. Belə bir ittifaqın yaradılması ilə bütün ədəbi qüvvələri bir məqsədə yönəltmək mümkünləşdi.

Görkəmli ədəbiyyatşünas – alim Kamal Talıbzadə yazırdı: "Tarix boyu Azərbaycan yazıçıları, bədii söz ustaları olmazın işgəncələrə, təzyiqlərə məruz qalmışlar. Bircə sovet hakimiyyəti illərində yüzlərlə Azərbaycan yazıçısının uzaq Sibir çöllərinə göndərilib məhv edilməsini, on illərlə qaranlıq zindanlarda saxlanılıb qətlə yetirilməsini, İkinci Dünya müharibəsinin qızğın atəş nöqtələrinə sürgün edilməsini xatırlamaq kifayətdir". Təbii ki, belə ziddiyyətli bir dövrdə Azərbaycan Yazıçılar İttifaqının

yurdumuzun istedadlı qələm sahiblərini öz ətrafına yığaraq fəaliyyətə başlaması çox çətin idi. Bir tərəfdən pərakəndəliyə son qoyulur, digər tərəfdən isə yazıçılar sovet ideologiyasına xidmət etməli, onun prinsipləri əsasında yazıb-yaratmalı idilər. Əlbəttə, çətin bir şəraitdə xalqa və ədəbiyyata xidmət etmək, onun inkişafına nail olmaq həyat bahasına başa gəlsə də, milli təfəkkür sahibləri bu ağır işin öhdəsindən gəlməyə çalışırdılar. Qaranlığın içində işıq yandırmağın nə demək olduğu aydındır. O dövrün yazıçı və şairləri bəzən də sovet prinsiplərini qalxan kimi əllərində tutaraq onun arxasında milli düşüncənin, şüurun məhsulu olan bədii yaradıcılıq nümunələrini hifz etməyə çalışırdılar.

Belə ağır və ziddiyyətli bir zamanda Azərbaycan Yazıçılar İttifaqının ilk sədri Məmməd Kazım Ələkbərli olmuşdur. O, Moskvada (1934) keçirilən sovet yazıçılarının I qurultayında iştirak və çıxış etmişdir. Dövrün ədəbi mənzərəsini anlamaq baxımından Xalq yazıçısı Mirzə İbrahimovun “Birlik və ilham” adlı məqaləsi çox əhəmiyyətlidir. Məqalədə oxuyuruq: “O zaman ədəbiyyatımız hələ gənc idi. Hələ mübahisəli məsələlər çox idi. Lakin bu ədəbiyyatın bütün nəsillərindən olan əsas qüvvələrini işıqlı, qüdrətli ideyalar birləşdirir, monolit birliyə sövq edirdi. Onlar yeni dünyanı – əmək səltənətini yaradanların bədii abidəsini ucaltmaq eşqi ilə coşurdular.” Amma bu coşqunluğun az vaxtda hansı faciə ilə üzləşə biləcəklərini, hansı şər qüvvələrin qara caynaqlarına keçə biləcəklərini ağıllarına belə gətirmirdilər.

## Həyatı

Məmməd Kazım Ələkbərli 1905-ci ilin yanvar ayında Dərbənd şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi doğma şəhərdə bitirdikdən sonra Bakıya gələrək Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Hələ gənc yaşlarında partiya və sovet rəhbərləri

ona inam göstərərək məsul vəzifələr etibar edirdilər. Ali məktəbi bitirdikdən sonra Gəncə Vilayət Xalq Maarif Şöbəsinin müdiri işləyən Məmməd Kazım Ələkbərli pedaqoji işlə bərabər bədii yaradıcılığa, xüsusilə də mətbuata yaxın və meyilli adam olub. Mətbuat tarixindən bəllidir ki, o, Gəncədə yaşayarkən həm də "Qızıl Gəncə" jurnalının baş redaktoru olmuşdur. Məmməd Kazım Ələkbərlinin bu sahədəki fəaliyyəti diqqət çəkirdi. O özünü bacarıqlı, istedadlı qələm sahibi və mətbuat təşkilatçısı kimi təsdiqləyə bilmişdi. Bu səbəbdən də tezliklə Məmməd Kazımı Mahaçqala şəhərinə "Dağıstan füqərası" qəzetinin redaksiyasını yaratmağa göndərirlər. Məmməd Kazım burada nəinki qəzetin çapını təşkil etmiş, eyni zamanda iki il də "Maarif yolu" jurnalının məsul redaktoru olmuşdur.

Moskvada Qırmızı Professorlar İnstitutunda 5 il təhsil aldıqdan sonra onu Azərbaycana partiya işinə göndəriblər. Hətta bir müddət Azərbaycan Dövlət Universitetinin rektoru olub. Yazıçılar İttifaqı yaranan kimi ona rəhbərlik də Məmməd Kazım Ələkbərliyə etibar edilib. Elmi-pedaqoji fəaliyyətlə bərabər Məmməd Kazım dövri mətbuatda müntəzəm çıxış edən jurnalist kimi də fəaliyyət göstərirdi. "Kommunist" nəşriyyatının direktoru, "Ədəbiyyat qəzeti", "Bakinski raboçi", "Vışka" qəzetlərində, "Zərbəçi", "Sürət", "İnqilab və mədəniyyət", "Firqə işçisi" jurnallarında baş redaktor olmuşdur.

Məmməd Kazım Ələkbərli həm görkəmli mətbuat işçisi, həm də ədəbiyyatşünaslıqla məşğul olan tədqiqatçı idi. Zəngin ədəbi irsə mənsub olan Məmməd Kazım mətbuat səhifələrində həm istedadlı publisist, həm də obyektiv tənqidçi kimi çıxış edirdi. Onun haqqında araşdırmalar aparanlar Məmməd Kazımı filosof-ədəbiyyatçı, alovlu publisist kimi dəyərləndirirdilər.

Ədəbiyyatşünas-alim Nazif Qəhrəmanlı Məmməd Kazım Ələkbərli haqqında qələmə aldığı məqalələrinin birində belə yazıb: "Azərbaycan ədəbiyyatına dair axtarışları xüsusi dərinliyi

və əhatəliyi ilə fərqlənməsə də, özünəməxsus ideyalar və fikirlərlə zəngindir... M.K.Ələkbərli Azərbaycan ədəbiyyatı tarixinin təbliğinin, onun faktlarının üzə çıxarılmasının, əhatəli və mükəmməl şəkildə toplanıb nəşr edilməsinin tərəfdarı idi. O, həmişə istər nəzəri, istərsə də praktik fəaliyyətində klassik irsə qayğı və diqqətin təmsilçisi kimi çıxış edirdi”.

Görkəmli ədəbiyyatşünas, tədqiqatçı Məmməd Kazım Ələkbərlinin anadan olmasının 115 illik yubileyi ilə əlaqədar bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, xatirə gecəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu görkəmli şəxsiyyəti uşaqlara tanıtmaq, sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə çatdırmaq məqsədilə kitabxanada kitab sərgisi də təşkil oluna bilər. Sərgiyə aşağıdakı başlıqları vermək olar: “Tufanlı yollardan qalan iz”, “Azərbaycan ziyalısı Məmməd Kazım Ələkbərli”, “Azərbaycanın say-seçmə oğulları sırasında Məmməd Kazım Ələkbərli”, “Şərəfli yolun sonu”, “Amansız hökmün qurbanı”, “Qara taleyin dastanı”, “Qara yolların izi”, “Ölümə doğru”, “İlk ağrı, ilk şikayət” və s. verilə bilər. Bundan başqa, sərgidə Məmməd Kazım Ələkbərlinin foto şəkilləri (stend halında) və kitabları öz yerini almalıdır. Müxtəlif ediblərin, alim və folklorşünasların Məmməd Kazım Ələkbərli haqqında yazdığı məqalələr, söylədikləri sitatlar da sərgidə nümayiş oluna bilər.

Məmməd Kazım Ələkbərlinin yubileyi ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də konfransdır. *“Azərbaycanın say-seçmə oğulları sırasında Məmməd Kazım Ələkbərli”* başlıqlı **konfransda** alimlər, tarixçilər, folklorşünaslar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edə bilərlər. Konfransda Məmməd Kazım Ələkbərlinin həyat və yaradıcılığı, keçdiyi şərəfli ömür yolu haqqında qonaqlara geniş məlumat verilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri iştirakçı qismində çıxış edirlər.

***I iştirakçı:*** Sən kimsən, ey qatil, hansı millətsən?
Vicdan pəncəsilə canın didilsin!
Sən nasıl öldürdün bütün milləti,
Nasıl sərdin yerə böyük şövkəti!

*Ə.Cavad*

Məmməd Kazım Ələkbərli 1905-ci il yanvarın 24-də Dərbənddə anadan olub. Uşaqkən məhəllədə “od-alov”, orta məktəbdə “ən sütül professor” adları qazanıb. Yeniyetməliyində ailə-ətrafından eşitdiyi, ilk gənclik çağındasa fərqinə vardığı “balıq dəryada böyüyər” məsəlinə binaən, çoxdanlardan eşidib-eşqinə düşdüyü Bakıya üz tutur. On yeddi yaşında qəbul olunub iyirmi ikisində bitirdiyi Azərbaycan Pedaqoji İnstitutundan (Dil-ədəbiyyat fakültəsi) sonra təhsilini Moskvada davam etdirib.

1934-cü ildə Bakıya dönən bu gənc fenomen tarixin qarşıdakı dörd (taleyinsə iki cüt nakam) ilində, müasirlərindən birinin təbirilə desək, “ərzin işləri” ni görüb. Gəncə Vilayət Xalq Maarif Şöbəsinin müdiri işləyən Məmməd Kazım Ələkbərli pedaqoji işlə bərabər, bədii yaradıcılığa, ümumən mətbu sahəyə çox meyilli olub.

22 yaşında “İdealizm və materializm və yaxud yeni fəlsəfə”, 24 və 30 yaşlarında “Yeni əlifba və orfoqrafiya”, “Azərbaycan ədəbiyyatı” kimi sanballı kitablar yazmış bu ədəbiyyatşünas-alimin səs-sədası bütün ölkəni bürüyüb. Hələ 30 yaşı tamam olmamış Azərbaycan Dövlət Universitetinin (BDU) ikinci azərbaycanlı (birinci T.Ş.Simurğ) rektoru, 1934-cü ildə təsis edilən Azərbaycan Yazıçılar İttifaqının idarə heyətinin sədri seçilib. Azərbaycan KP MK yanında “Kommunist” nəşriyyatının direktoru və bir neçə qəzet və jurnalın baş redaktoru işləyib.

Müasirlərindən bəziləri “M.Ələkbərli müasiri olduğu şair və yazıçılar, tənqidçilər, eləcə də klassik ədəbiyyatımız haqqında

söz deyərkən müəyyən mənada ehtiyatlı olmağa çalışırmış”, “Bu görkəmli ədəbiyyatşünas-alim xeyli milli çabaları ilə bahəm, bəzən, zəmanə ilə addımbaaddım ayaqlaşırdı da” kimi fikirlər işlətsələr də, öz kristal dönməzliklərinin güdazına getmiş Mikayıl Rəfili, Əhməd Cavad, Almas İldırım və başqalarının onun haqqında yazdıqları rəğbət hissi ilə dolu məqalələr şəhadət verir ki, bu adam dövrün “mübahisəli” lərindən çox, mübarizlərindən olub. Elə onun 1938-ci ilin məlum “cəza təqdirləri” ndə güllələnməsi də bunu təsdiq edir və sonda bu qənaətə işləyən xatirələrdən –

Fraqmentlər

“Mənim... üzdə “qırmızı”, içdə qızıl professor dayım”...

Bu hekayət, Mircəfər Bağırovun eynəyini sındıran bir qızın - həyatın saysız-hesabsız keşməkeşlərini yaşaya-yaşaya 90 ili geridə qoymuş Asya xanımın dilindəndir.

“Biz əslən dərbəndliyik. Ana tərəfim Fətəli xan nəslindəndir. O vaxtlar vəziyyət çox ağır idi; adambaşına üç yüz qıram çörək verirdilər, onu da ki, çox zaman yavan yeyirdik.

Xatirələrim içərisində ən acı və ən şirini Məşədi Məmməd Kazım dayımla bağlı olanlardır. Çox savadlı, ziyalı adamlardan idi mənim o bəxt-talesiz dayım. Bizim Pedaqoji İnstitutdan sonra təhsilini Moskvada davam etdirib. Xüsusi istedadı və bacarığına görə, bir kərə Stalin ona “Krasnı professor” deyib və onu Azərbaycan KP Mərkəzi Komitəsinə birinci katib təyin etmək istəyirmiş. Bu məqsədlə dayımı Moskvadan Azərbaycana göndəriblər. Gələndə nə anasına, nə də xətrini hamıdan çox istəyən mənciyəzə heç nə demədi. Elə hey susurdu. Sən demə, ürəyində bu baş vəzifəyə layiq bildiyi Mircəfərin adını Moskvada necə dilə gətirmək haqda düşünürmüş.

Mircəfər bizə hər gələndə məni qucağına alırdı. Qəribə kişi idi. Heç gülər üzü olmazdı. Bir dəfə də məni qucağına alanda eynəyini gözündən alıb oynadarkən əlimdən düşüb sındı.

Dayımın mənə çox sərtliklə təpinməsi heç vecimə olmadı, amma qucağında oturduğum kişi ona "işin yoxdur, lap əcəb elədi!" deyəndə yaman qorxdum..."

Mircəfər dayımın yaxın dostlarından idi. İstəyirdi onu qabağa çəksin. Nəhayət, bir kərə cəsarətə gələrək, Bağırovun təqdimatını eləyib Stalinə. Özününsə elmi araşdırmalarla məşğul olmaq istədiyini bildirib.

Bağırov Mərkəzi Komitəyə rəhbər təyin olunandan sonra da bizə tez-tez gələrdi. Onda artıq Məmməd Kazım dayım bizi də Dərbənddən Bakıya gətirmişdi.

O dövrün (əslində, bütün zamanların) ən dramatik dramaturqu Cəfər Cabbarlı ilə ilgili epizodu da çox təsirlidi...

Belə ki, 1934-cü il, 31 dekabr, səhər saat 10-da onunla birlikdə (Yazıçılar İttifaqının sədri olaraq) M.Bağırovun qəbulunda olub, elə bu rəhbərin öz tapşırığıyla "Pravda" qəzeti üçün yazdığı (sonralar "Firuzə" adıyla məşhurlaşası) "Bakı" novellasını oxuyası böyük sənət-səhnə sənətkarının ömür pərdəsi, həmin görüşdən 6 saat əvvəl (gecə saat 4-də), bütün Azərbaycan tamaşaçısı və ailə üzvlərinin xəbəri olmadan enir; həyat yoldaşı Sona xanım qəflətən yuxudan ayılıb işığı yandırır və onun çöhrəsində müəmmalı bir təbəssüm, yanaqlarında iki damla göz yaşı görür...

Və... ötən əsrin 70-lərində həmin hadisənin davamı qismində eşitdiyim bir xatirə: "Cəfərin dəfnində, mərasimin təşkilatçısı Məmməd Kazım Ələkbərli heç özünə gələ bilmirdi, həddən ziyadə pəjmürdə idi, capcavan alnının düyün-qırışlarına çırtma vursaydın, qan sızardı..."

***II iştirakçı:*** XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai-fəlsəfi fikrin milli-demokratik yönü birmənalı şəkildə türkçülük (Türk birliyi), islamçılıq (İslam birliyi), qərbçilik (Qərb mədəniyyətini mənimsəmək, ya da müasirləşmək, yeniləşmək) və istiqlalçılıq (müstəqil Azərbaycan) ideyaları ilə

bağlı olmuşdu. Burada başlıca məqsəd milli və dini məsələlərin əsas prinsiplərindən kənara çıxmamaq şərti ilə Qərbin müsbət demokratik dəyərlərini də təbliğ etmək idi. Deməli, bu dövrdə milli-demokratik cərəyan Azərbaycan milli ictimai-fəlsəfi fikrində önəmli yer tutmuşdur.

Bu dövrdə Azərbaycan türk aydınlarının böyük əksəriyyəti (Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan Topçubaşov, Nəsib bəy Yusifbəyli və b.) milli fəlsəfi dünyagörüşlərində əsas üstünlüyü milli-dini xüsusiyyətlərə və liberal-demokratik dəyərlərə vermişlər. Bu aydınlar dövrünün tələblərini və ideyalarını da nəzərə almaqla milli və dini dəyərlərə sadiq qaldılar. Onlar Azərbaycan Türk millətinin fəlsəfi, mədəni və dini dünyagörüşü əsasında yeni ideyalar irəli sürdülər. Bu ideyalar idealist dünyagörüşündən əsasən kənara çıxmamış və milli fəlsəfi fikir zəminində təşəkkül tapmışdır. Məhz bu aydınların irəli sürdüyü ideyalar nəticəsində Azərbaycan çar Rusiyasının müstəmləkəsindən qurtularaq azad və müstəqil bir dövlətə çevrilmişdi. Belə ki ilk rüşeymləri XIX əsrin ikinci yarısında qoyulan və XX əsrin əvvəllərində sistemləşən milli azadlıq ideyası Azərbaycan Cümhuriyyətinin yaranması (1918) ilə nəticələndi. Ölkənin siyasi-ideoloji mənzərəsinin dəyişməsində I (1905) və II (1917) Rusiya inqilabları çox mühüm rol oynadı. Şübhəsiz ki, bu inqilablar dövründə xalq arasından milli liderlərin, ideoloqların xalqı öz arxalarınca aparmaları müstəsna yerə malikdir. Məhz onların sayəsində yeni dövrdə Azərbaycanda milli ideologiyanın təməl prinsipləri müəyyənləşdirildi. Azərbaycanın siyasi azadlığı milli muxtariyyətdən milli istiqlala qədər çox mühüm bir mərhələ keçmiş oldu. Ən əsası odur ki, "tarixi-coğrafi Azərbaycan" deyimini, müstəqil və milli Azərbaycan anlayışı əvəz etdi. Milli istiqlalın birmənalı şəkildə ideoloqu olan M.Ə.Rəsulzadə

Azərbaycan türkçülüyü ideyasını Azərbaycan milli ideologiyasına qədər yüksəldə bilmişdi.

Məmməd Kazım Ələkbərlinin 115 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Fiziki və mənəvi həyatını millətinin azadlığı uğrunda paymal etmiş mücahid"* adlı **dəyirmi masa** ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Məmməd Kazım Ələkbərlinin yaradıcılığı haqqında qısa məlumat verir.

***Kitabxanaçı:*** Məmməd Kazım Ələkbərlinin 1935-ci ildə çap edilmiş "Azərbaycan ədəbiyyatı" adlı əsərində ədəbiyyatımızın tarixinə, ayrı-ayrı dövrlərinə, konkret insanların yaradıcılığı ilə bağlı müxtəlif fikirlərə rast gəlinir. Məmməd Kazım Ələkbərli "Kitabi Dədə Qorqud" un azəri türklərinə aid dastan olduğunu dəfələrlə söyləmiş və yazmışdı. Təbii ki, Məmməd Kazım Ələkbərli dövrünün övladı idi. Onun elmi axtarışları bir tərəfdən tarixə, faktlara, tədqiqatlara, axtarışlara, elmi təfəkkürə söykənirdisə, digər tərəfdən üzləşdiyi maneələrin istiqamət verdiyi yollarda da məcburi addımlar atırdı. Ədəbiyyatşünas-alim Nazlı Qəhrəmanlının təbirincə desək, M.K.Ələkbərlinin elmi-nəzəri irsi Azərbaycan ədəbiyyatı tarixi üzrə araşdırmalara əhəmiyyətli rəng və müdrik nəfəs gətirmiş, ədəbi mübarizələrin siyasi ehtirasını azaltmağa müəyyən mənada xidmət göstərmişdir. Məmməd Kazım Ələkbərli müasiri olduğu şair və yazıçılar, tənqidçilər, eləcə də klassik ədəbiyyatımız haqqında söz deyərkən müəyyən mənada ehtiyatlı olmağa çalışırmış.

Məmməd Kazım Ələkbərli Moskvada Qırmızı Professorlar İnstitunu bitirmişdi. "Oktyabr inqilabı" və "Azərbaycan ədəbiyyatı", "Şura ədəbiyyatı yüksəliş yollarında" "Aprel ədəbiyyatı" kimi məqalələrin müəllifi idi.

Azərbaycan dilində “Fəlsəfə” dərsliyinin yaradılmasına çalışırdı. Bütün bunlar isə onu 1937-ci ilin qara caynaqlı tufanından xilas edə bilmədi. Repressiyanın dalğaları Məmməd Kazım Ələkbərlini də apardı. Bir neçə il sürən çək-çevirdən, şər şamatadan sonra 1938-ci ildə güllələnmişdi.

Cəmi 33 il yaşamış Məmməd Kazım Ələkbərli Azərbaycan ədəbiyyatının inkişafı üçün cani-dildən çalışan, dəyanət və təmkini ilə seçilən qələm sahiblərindən biri olmuşdur. Bu Azərbaycan ziyalısının  repressiyaya məruz qalmış məğrur insanların faciəli, fəqət şərəfli, taleyi idi. Görkəmli ədəbiyyatşünas, tədqiqatçı Məmməd Kazım Ələkbərlinin anadan olmasının 115 illik yubileyi ilə əlaqədar olaraq kitabxanada *“Ölümə doğru gedən yol”* adlı **oxucularla söhbət** keçirilə bilər. Bunun üçün kitabxanaçı kitabxananın oxu zalına toplanmış oxucuları ədibin kitabları ilə tanış edir və ədibin nakam həyat yolundan, eləcə də sanballı yaradıcılığından söhbət açır.

*Kitabxanaçı:* Yazısına pozu, kəsdiyinə sorğu-sual olmayan repressiya kompaniyası ərəfəsində ekranlara çıxan bir film - sonralar milyonlarla şagird və tələbənin “Azərbaycan sovet ədəbiyyatı” dərsliyindən tanış olub sevəcəyi məşhur imzalar içərisində ən çox bu qeyri-məşhur ismi narahat edir və o, “Ədəbiyyat qəzeti” nin 1 iyun 1936-cı il sayında, adını növbəti ilin qara siyahısına salası bir məqalə yazır: “Pis ssenaristin oy alıb gəldiyi yerdə”...

O, həmin məqalədə milli namus-vicdan gözü ilə də baxdığı bu filmin (“Mavi dənizin sahilində”) ilk epizodunu belə məzmunlaşdırır: “Qara çadralı bir türk qadın, özündən başqa heç kəsin olmadığı bir yerdə çadrasına bərk-bərk bürünüb oturmuş, ağzında uzun tənbəki çubuğu tüstüləyir, ruzigar qadının yamaqlı tumanını oynadır və onun cılız baldırları görünür...”

Azlıqda qalan xalqları mədəniyyətsiz, cahil görməyə və göstərməyə çalışan bolşevizm ideologiyasına bu tutarlı cavab, tezliklə millətin qaymağını üzləyəsi repressiya sunamisinə qədərki dövrdə bu xalqın əsl ziyalılardan xali olmadığını da isbatlamırmı?

Və maraqlıdır ki, məhz bu məqalədən sonra həmin epizod filmdən çıxarılır...

1936-cı ildə "Çapayev" filminin Azərbaycan dilinə dublyajında da xüsusi əməyi olmuş, çox qısa bir ömürdə çox belə vəfalı vətəndaş, milli ziyalılıq görəvləri görmüş- Məmməd Kazım Ələkbərli.

Ən gənc rektor, sədr, direktor, baş redaktor (üç qəzetdə), ən kəsərli publisist, filosofanə ədəbiyyatşünas və... "xalq düşməni"... Bunların hamısı cəmi-cümlətanı 33 yaşda yaşanıb!

## Ədəbiyyat siyahısı

Abbaslı T. Məmmədkazım Ələkbər: Ən gənc rektor, sədr, direktor, baş redaktor, (üç qəzetdə) ən kəsərli publisist, filosofanə ədəbiyyatşünas və ... "xalq düşməni" // Mədəniyyət. - 2018. – 24 yanvar. - № 6.

Dünyaminqızı Q. "24-lər"dən yeddincisi – Məmmədkazım Ələkbərli : Sovetlərin "inamsızlığı" onu 32 yaşında qurban verib // Kaspi. – 2018.– 21-23 aprel. – № 71.

Xəlilzadə F. Repressiya dalğasının qurbanı : Məmməd Kazım Ələkbərli // Azərbaycan. – 2019. – 30 yanvar. – S.7.

# Repressiya dalğasının qurbanı – Məmməd Kazım Ələkbərli

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 01
Çapa imzalanmışdır: 09.01.2020
Tirajı:100
Pulsuz